# "Sənətin Məcnunu"

*Kitab Səttar Bəhlulzadənin 100 illik yubileyi münasibəti ilə çap ediləcək*

***Bildiyimiz kimi, bu il dünyaşöhrətli rəssam Səttar Bəhlulzadənin 100 illik yubileyi dövlət səviyyəsində qeyd olunmaqdadır. Bakı şəhər Mədəniyyət və Turizm İdarəsinin məlumatına istinadən, Səttar Bəhlulzadənin 100 illik yubileyi münasibəti ilə "Sənətin Məcnunu" kitabı çap ediləcək.***



Mədəniyyət və turizm nazirliyinin sifarişi ilə hazırlanmış və təhsil nazirliyinin "Təhsil" nəşriyyatında çap olunacaq bu kitabın müəllifi Azərbaycan Rəssamlar İttifaqının tənqid və incəsənət bölməsinin sədri Ziyadxan Əliyevdir.

On beş bölmədən ibarət kitabda, ilk dəfə olaraq, Səttar Bəhlulzadənin qrafik irsi, sənətkarlığının mənbələri, yaradıcılığındakı poetika və fəlsəfi dünyagörüşü araşdırılmışdır. Topluda rəssamın gündəliyindən parçalar, Səttar Bəhlulzadəyə həsr olunmuş şəkillər, şeirlər, heykəllər, rəssamın incəsənət və müxtəlif incəsənət ustaları barədə fikirləri toplanmışdır. Təxminən 400 səhifədən ibarət olan kitaba S.Bəhlulzadənin rəsmlərinin təqribən 350-dək fotoşəkili, eyni zamanda, sənətkarın həyatının müxtəlif dövrlərini əks etdirən fotolar daxil edilmişdir.

# Azərbaycan Folkloru Antologiyası seriayasından

*"Şəki Folkloru Antologiyası" və "Zəngəzur Folkloru Antologiyası" işıq üzü görüb*



***AMEA Foklor İnstitutunun direktoru, filologiya elmləri doktoru Hüseyn İsmayılovun rəhbərliyi ilə artıq on altı cildi işıq üzü görmüş Azərbaycan Folkloru Antologiyası seriyasına 2009-cu ildə bir neçə kitab da əlavə olundu. Bunlar bu günə qədər iki cildi toplanılaraq, Azərbaycan folkloru xəzinəsinə daxil edilmiş "Şəki Folkloru Antologiyası" və bundan əvvəl bir cildi çap olunmuş "Zəngəzur Folkloru Antologiyası"dır.***

AMEA Foklor İnstitutunun mətbuat katibi Hikmət Quliyevin "Səs" qəzetinə verdiyi məlumata əsasən, hər iki kitab Azərbaycan xalqının mənəvi sərvəti olan folklorunu - onun min illərin yaddaşından süzülüb gələn adət və ənənəsindən tutmuş ən kiçik etnoqrafik yaddaşını əks etdirir.

Nümunələrin qədim türk məskənlərindən olan Şəki və Zəngəzur bölgələrindən toplanılmasına baxmayaraq, bu, ümumilikdə, Azərbaycan xalqının ümumi dəyərlərini, onun özü üçün müəyyənləşdirdiyi yaşam tərzini və normalarını bizə təqdim edir.

Antologiyaların hər ikisinə diqqət yetirsək, görərik ki, burada Azərbaycan folkloru xəzinəsinə daxil olan əmək nəğmələri, inanclar, tapmacalar, atalar sözləri və məsəllər kimi kiçik janrlardan tutmuş əfsanə, rəvayət, nağıl və dastanlar qədər olan bütün janrlar toplanılaraq, oxuculara təqdim olunmuşdur.

Qeyd etdiyimiz kimi, "Göyçə Folkloru Antologiyası" latın qrafikası ilə yenidən işıq üzü görüb. AMEA Folklor İnstitutunun direktoru, filologiya elmləri doktoru Hüseyn İsmayılovun rəhbərliyi ilə Azərbaycan Folkloru Antologiyası seriyasının çapı bir neçə istiqamətdə davam edir. Belə ki, bir tərəfdən ayrı-ayrı regionlarımızdan toplanılmış folklor nümunələri işıq üzü görürsə, digər tərəfdən isə, əvvəllər toplanılaraq, müxtəlif qrafikalarda çap olunmuş materiallar da latın qrafikasında nəfis tərtibatla oxucuların sərəncamına verilir. Təsadüfi deyildir ki, Folklor İnstitutunda bu vaxta qədər 19 folklor antologiyası çap olunmuşdur. Bununla yanaşı, müxtəlif mənbələrdə çap olunmuş ayrı-ayrı nümunələr də latın qrafikasına çevrilərək, çap edilməkdədir.

Bu prosesin məntiqi, davamı olaraq, bu günlərdə Azərbaycan Folkloru Antologiyası seriyasından olan "Göyçə Folkloru Antologiyası" (III cild) latın qrafikası ilə yenidən çap olunmuşdur.

Kitabda Azərbaycanın qədim Oğuz məskənlərindən olan Göyçədən toplanılmış zəngin folklor nümunələri çap olunmuşdur. Kitabda çap olunmuş nümunələrin toplayıcısı filologiya elmləri doktoru Hüseyn İsmayılovdur.

Qeyd edək ki, "Göyçə Folkloru Antologiyası" istər çap olunmuş materialların həcmi, istərsə də, keyfiyyəti baxımından ən zəngin antologiyalardandır. Belə ki, burada Göyçə folkloruna məxsus ən kiçik janrlardan tutmuş (nəğmələr, inanclar, atalar sözü və məsəllər və s.) ən iri janrlara (nağıl, dastan və s.) kimi yer almışdır.

Qeyd edək ki, Azərbaycan Folkloru Antologiyası seriyasından olan "İraq-Türkman Folkloru" cildi də latın qrafikasına çevrilməklə yenidən çapa hazırlanır.

## Rəfiq Zəka Xəndanın 70 illiyi qeyd olunacaq

Əməkdar incəsənət xadimi, Dövlət Mükafatı Laureatı, şair Rəfiq Zəka Xəndanın anadan olmasının 70 illiyi münasibətilə yubiley tədbiri keçiriləcək. Mədəniyyət və turizm nazirliyinin məlumatına əsasən, tədbir dekabrın 23-də Azərbaycan Dövlət Mahnı Teatrında təşkil olunacaq.

Rəfiq Zəka Xəndan zəngin ədəbi irsə malik olan şair, XX əsr Azərbaycan ədəbiyyatının tanınmış simalarından biridir. Onun özünəməxsus poeziyası geniş oxucu rəğbəti qazanmış, sözlərinə mahnılar bəstələnmişdir. Rəfiq Zəka Xəndanın əsərləri vətənə məhəbbət, dövlətçiliyimizə inam nümunəsidir. Tədbir zamanı şairin şeirləri səslənəcək, Mahnı Teatrının musiqi kollektivi isə Rəfiq Zəkanın sözlərinə bəstələnmiş mahnılar ifa edəcək.

## *Qapalı dünyaların şeir boğçası*




Bu günlərdə Hacı Tofiq Ceyidovun "Məhəmmədin şeir boğçasından" kitabı çapdan çıxıb. Bu, qələm sahibini oxuculara təqdim olunan sayca 35-ci nəşridir. Kitabın rəyçisi Dünya Yazıçılar Birliyinin üzvü Əli Şahverdiyev, redaktoru isə Hüseyn Hacıyevdir.

Azərbaycan tarixini, etnoqrafiyasını araşdıraraq, bir sıra elmi-publisistik məqalələrlə çıxış edən Hacı Tofiq Seyidov bu məkanın övladlarının sənət və yaradıcılıq dünyasından, onların tale yollarından da bəhs edərək, sayseçmə insanların təcümeyi-halını çoxsaylı insanların mühakiməsinə vermək üçün qələmini işlətmişdir. Müxtəlif taleli insanların ömür yollarına salınan işıqda məqsəd yaşanılan illərin məna və ideyası ilə gəncləri tanış etmək, onların milli mənəvi dəyərlər üzərində tərbiyə olunmasına təsir göstərməkdir. Müəllifin "Məhəmmədin şeir boğçasından" kitabı da məhz bu məqsədlə nəşr edilmişdir. Müəllif yenə də araşdırmalarının nəticəsində Azərbaycanın ziyalı oğullarından birinin sənət dünyasını üzə çıxarmağı özünə borc bilmiş, onun ömrünə naxış olan misralarının yaşaması üçün Tanrının verdiyi ömür payında müəyyən saat və ayları məhz bu xeyirxah işə - Məhəmməd Əhmədovun yaradıcılıq ştrixlərinin üzə çıxarmağa həsr etmişdir.

Uşaqlıq, yeniyetməlik, gənclik dövrünün xatirələri dil açır şair qələmindən. Bu misralarda umu-küsü, giley də var, sevgi də, hicran da, xoşbəx dəqiqələr də. Hər an Tanrının insana bəxş etdiyi ömür yoluna naxış salır, onu mənalandırır. Hacı Tofiq Seyidov da belə bir insanla oxucusu arasında bir mənəvi körpü yaratmağa çalışıb, bu xeyirxah missiyanı üzərinə götürür. Nəsihətamiz fikirlər şair bədiiləşməsində xüsusi maraq kəsb edir. İnsanları halallığa çağıran bu misralarda təmizlik, paklıq, ülvilik özünü göstərir.

"Məhəmmədin şeir boğçasından" kitabı vasitəsi ilə oxucular Məhəmməd Əhmədovun nəzmə çəkdiyi misraların ideyasında dayana əsas qayə ilə tanış olacaqlar.

## *Dünyada özəl Miniatür Kitab Muzeyinin təsisçisi*

*Zərifə Salahova Rusiya Mədəniyyət Nazirliyinin Fəxri fərmanına layiq görülüb*

Azərbaycan "Kitab" cəmiyyətinin sədri, Beynəlxalq Kitabsevərlər İctimai Birlikləri İttifaqının İcraiyyə Komitəsi Şurasının üzvü, dünyada özəl Miniatür Kitab Muzeyinin təsisçisi Zərifə Salahova mədəniyyətin inkişafına böyük töhfəsinə görə Rusiya Mədəniyyət Nazirliyinin fəxri fərmanına layiq görülmüşdür. Bu barədə əmri Rusiya mədəniyyət naziri A.Avdeyev imzalamışdır. Fəxri fərman BKİBİ-nin baş qərargahında təntənəli şəraitdə təqdim olunmuşdur.

Mədəniyyət sahəsində xidmətlərinə görə fəxri diploma yeddi nəfər layiq görülmüşdür. Onların altısı rusiyalıdır. MDB ölkələrinin yeganə təmsilçisi Zərifə Salahova çoxillik və zəngin fəaliyyəti ilə böyük nüfuz qazanmışdır. Bu il BKİBİ-nin fəaliyyətə başlamasının 35 ili tamam olur. Bu münasibətlə Rusiya Mədəniyyət Nazirliyində kitabsevərlər cəmiyyətləri üzvlərinin kitabın təbliği sahəsində fəaliyyəti təhlil olunmuşdur. Birlik kitabı dəyərləndirən, sevən, həyatda onun prioritetinin qorunub saxlanmasının qayğısını çəkən insanları birləşdirir. Bununla əlaqədar, həm ölkəmizdə, həm də onun hüdudlarından kənarda yaxşı tanınan Zərifə Salahovanın miniatür kitab muzeyi xüsusi əhəmiyyətə malikdir. Miniatür Kitab Muzeyi bu qəbildən olan nəşrlərin təbliği mərkəzinə çevrilmişdir.

Rusiya Mədəniyyət Nazirliyinin onun fəaliyyətinə verdiyi bu yüksək qiymət ölkələrimiz arasında qarşılıqlı münasibətlərin yüksək səviyyəsindən xəbər verir.

**Hazırladı: ZÜMRÜD**